# Alim ömrü

Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Sərvər Alimetovu tanıyanlar onun barəsində həmişə xoş sözlər söyləyirlər. Birmənalı şəkildə deyirlər ki, o, bilikli alimdir, mehriban insandır. Sərvər müəllimin müsbət xüsusiyyətləri çoxdur. Bu təcrübəli pedaqoq, kollektivdə qayğıkeşliyi, sadəliyi, təvazökarlığı, saflığı, yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən adamdır.

Professor Sərvər Nəriman oğlu Alimetovun bu yaxınlarda 75 yaşı tamam olmuşdur.

O, 1940-cı il mart ayının 12-də Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. 1946-cı ildə Düztahir kənd orta məktəbinə daxil olmuş, 1956-cı ildə oranı qızıl medalla bitirmişdi. Bu məktəb 1946-cı ildə İkinci Dünya müharibəsi qurtardıqdan sonra açılmış və kənd əhalisi onu "Kənd akademiyası" adlandırırdı. Burada o zaman vahid proqressiv proqram üzrə tədris olunan fənlər yüksək ixtisaslı müəllimlər tərəfindən keçirilirdi. Ciddi nizam-intizam var idi. Orta təhsil biliklərinə dərindən yiyələnən S.Alimetov 1956-cı ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) pediatriya fakültəsinə daxil olmuşdur. 1962-ci ildə ali təhsilini əla qiymətlərlə başa vurduqdan sonra, onun Azərbaycan Tibb Universitetinin uşaq cərrahiyyəsi kafedrasında saxlanılması barədə Elmi Şura qərar çıxarsa da, o, doğma kəndinə təyinat götürmüşdür.

1962-1970-ci illərdə Qusar rayonunun Şirvanovka regional xəstəxanasında baş həkim vəzifəsində çalışmışdır. Bu xəstəxana Nabran, Yalama, Şirvanovka, Samur qəsəbəsi olmaqla Azərbaycan-Dağıstan sərhədi boyunca iyirmidən çox kənd və obaya müxtəlif istiqamətli tibbi xidmət göstərirdi. Həmin illərdə əhali arasında müxtəlif parazit və infeksiya mənşəli xəstəliklər, uşaq ölümü göstəricisi yüksək idi, səhiyyə-maarif işinin yoxluğu xüsusilə baş alıb gedirdi. S.Alimetovun burada çalışdığı yeddi il ərzində peşəkar kollektivin bacarığı sayəsində və əhalinin fəallığı nəticəsində yüksək naliyyətlər əldə edilmiş, uşaq ölümünün faizi xeyli aşağı endirilmiş, Nabran turizm bazasında tibbi xidmətin səviyyəsi xeyli yaxşılaşdırılmışdır.

1970-ci ildə səhiyyə sahəsində böyük praktik təcrübə qazanmış S.Alimetov Azərbaycan Tibb İnstitutunun akademik C.M.Abdullayevin rəhbərlik etdiyi hospital terapiyası kafedrasının aspiranturasına çox gərgin keçən müsabiqə üzrə daxil olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, akademik Cahangir Abdullayev 1901-ci ildə Gəncə şəhərində anadan olmuş, Azərbaycan Tibb İnstitutunu bitirdikdən və Leninqradda (Sankt-Peterburqda) kardiologiya üzrə alimlik dərəcəsi aldıqdan sonra, Bakıda - Semaşko adına 1 saylı klinik xəstəxanada hospital terapiyası kafedrasını yaratmış və Azərbaycanda kardiologiyanın banilərindən biri olmuşdur.

Professor S.Alimetov 1972-ci ildə Azərbaycan Tibb İnstitutunda "Öd kisəsi və öd ifrazedici yolların xəstəliklərində su və elektrolit mübadiləsinin dinamikası" mövzusunda namizədlik işini uğurla müdafiə etmişdir. Dissertasiya işində duodenal zondun modifikasiyasını və öddə elektrolitlərin alovlu fotometr vasitəsilə müəyyən edilməsi üsulunu işləyib hazırlamışdır. Tibb elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra, aspiranturanı vaxtından əvvəl müvəffəqiyyətlə başa vurmuş kadr kimi o, Azərbaycan Tibb İnstitutunun hospital terapiyası kafedrasına işə götürülmüşdür. Assistent kimi fəaliyyətə başlayan Sərvər müəllim müxtəlif illərdə pediatriya fakültəsində dekan müavini, internatura şöbəsinin müdiri, Azərbaycan Respublikası Tibb-Məhkəmə Ekspertizasında terapevt-ekspert, səhiyyə maarif müşaviri, fakültə partiya təşkilatının katibi və sair məsul vəzifələrdə çalışmışdır. S.Alimetov 1976-cı ildə Azərbaycan Tibb İnstitutu daxili xəstəliklər kafedrasına dosent vəzifəsinə seçilmişdir. 1977-1980-ci illərdə xüsusi xarici ezamiyyətdə olmuşdur. Afrika qitəsində - Əlcəzairdə 3 il həkim vəzifəsində çoxprofilli Benisaf mərkəzi xəstəxanada işləmişdir. Bu müddət ərzində Əlcəzair, Mərakeş, Tunis, Macarıstan, Bolqarıstan, Rusiya, Yaponiya və digər ölkələrdə keçirilmiş elmi konfrans, konqres və simpoziumlarda fəal iştirak etmişdir.



S.Alimetov 1998-ci ildə "Xroniki ürək çatışmazlığında hemodinamik və homeostaz pozğunluqlarının xüsusiyyətləri və korreksiyası" mövzusunda tibb elmləri üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. Burada ürək çatışmazlığına düçar olmuş xəstələrdə bəzi toksiki mikroelementlərin çoxluğu sayəsində toksikozlar, bradikardiya, hipotoniya, refrakter vəziyyətlərdə rekompensasiya üsullarını işləyib hazırlamışdır; yeni klinik əlamət Alimetov simptomu adı altında təsvir edilmişdir. 1971-ci ildən Azərbaycan və Rusiya terapevtlər, kardioloqlar cəmiyyətinin üzvüdür.

Professor S.Alimetov Türkiyə, Rusiya, Orta Asiya və Amerikada çap olmuş onlarca elmi məqalənin, 300-dən çox elmi işin, 50-dən çox kitabın, o cümlədən 20-dən çox dərsliyin, elmi-praktik vəsaitin, monoqrafiyanın, metodik tövsiyənin, 7 səmərələşdirici təklifin müəllifidir. Azərbaycan Tibb Universitetində fəaliyyət göstərdiyi 45 il ərzində yüzlərlə tələbənin, dissertantın elmi işlərinin yerinə yetirilməsində və formalaşmasında onun yaxından köməyi olmuşdur.

S.Alimetov "Qızıl Qələm" media və "İbn Sina" beynəlxalq mükafatları laureatıdır, 2005-ci ildə ilin ən yaxşı tədqiqatçı alimi adına layiq görülmüşdür.

Böyük vətənpərvər, gözəl insan və valideyn, dərin bilikli və bacarıqlı terapevt və kardioloq, məhsuldar alim və yorulmaz müəllim S.Alimetov hazırda Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasında yaradıcılıq fəaliyyətini davam etdirir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**